

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 221 (23.383)

23 noyabr 2019-cu il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Əlil və şəhid ailələrinin mənzil təminatı ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Əlil və şəhid ailələrinin mənzillə təminatının davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.47.2-ci yarımbəndində göstərilmiş məbləğin 500 000 (beş yüz min) manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 22 noyabr 2019-cu il*

## "Pivot" layihəsi çərçivəsində əkin sahələrində müasir suvarma (yağışyağdırma) sistemlərinin quraşdırılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Pivot" layihəsi çərçivəsində əkin sahələrində müasir suvarma (yağışyağdırma) sistemlərinin quraşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.47.2-ci yarımbəndində göstərilmiş məbləğin 2,0 (iki) milyon manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 22 noyabr 2019-cu il*

## Naxçıvan Muxtar Respublikasında Süni Mayalanma Mərkəzinin yaradılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasında Süni Mayalanma Mərkəzinin yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.47.2-ci yarımbəndində göstərilmiş məbləğin 4,8 milyon (dörd milyon səkkiz yüz min) manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 22 noyabr 2019-cu il*

## Culfa-Ordubad avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Culfa-Ordubad avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.47.2-ci yarımbəndində göstərilmiş məbləğin 34,3 milyon (otuz dörd milyon üç yüz min) manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 22 noyabr 2019-cu il*

# Qo Min: "Ümidvaram ki, gələcəkdə digər Çin şirkətləri də Naxçıvanda investisiya layihələri həyata keçirəcək"

***Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Qo Min Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, Heydər Əliyev Muzeyində olub.***





Naxçıvan Biznes Mərkəzinə gələn səfirə məlumat verilib ki, mərkəzin sərgi salonunda 94 müəssisənin 196 növdə və 1232 çeşiddə məhsulu, 65 ailə təsərrüfatında istehsal olunan 20 növdə 157 çeşiddə məhsul, sənətkarlar tərəfindən hazırlanan əl işləri, rəsm əsərləri, xalçalar və Naxçıvan Muxtar Respublikasının istehsal müəssisələrinin xəritəsi nümayiş olunur.



Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Naxçıvan Dövlət Universitetində də olub.

Universitetin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində keçirilən görüşdə ali təhsil ocağının rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qonağa ali təhsil ocağı haqqında ətraflı məlumat verib.

Əvvəlcə Çinin tarixini, mədəniyyətini, incəsənətini özündə əks etdirən videoçarx nümayiş olunub. Sonra səfir Azərbaycan-Çin əlaqələrinə dair mühazirə deyib. Qeyd olunub ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan iki ölkə arasında tərəfdaşlıq münasibətləri daha da möhkəmlənib, əlaqələrimiz uğurla inkişaf edib, son 20 ildə yüksək səviyyədə formalaşıb.

Diplomat tələbələrin suallarını cavablandırıb. Təhsil sahəsində gələcək perspektivlər dəyərləndirilib.

Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlıq zamanı xanım Qo Minə məlumat verilib ki, 1979-cu ildə qədim duz mədənlərinin bazasında yaradılan mərkəzdə hazırda bronxial-astma və ağciyər-bronx sisteminin digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar müalicə olunurlar. Yer altındakı duz dağının qalınlığı 8,2 metrə bərabər olan səhiyyə ocağında oksigen və zəngin duz minerallarının yaratdığı hava bir çox xroniki xəstəliklərin müalicəsində müstəsna rola malikdir. Burada duz layları arasında oksigen havanın 20 faizini təşkil edir ki, bu da ağciyər xəstəliklərindən əziyyət çəkənlərə təbiətin bəxş etdiyi ən gözəl dərmandır. Oksigen və zəngin duz minerallarının yaratdığı hava xroniki ağciyər xəstəliklərinin müalicəsində müstəsna rola malikdir. Havanın temperaturu isə sabitdir – 18-20 dərəcə, nisbi rütubət 24-50 faiz arasında dəyişir. Duzun tərkibindəki zəngin minerallar və kimyəvi elementlər də orqanizmə müsbət təsir göstərir.

Səfər çərçivəsində diplomat Naxçıvan Avtomobil Zavodunda, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, Nuh Peyğəmbərin türbəsində,"Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyində və Möminə xatın türbəsində olub.

Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Qo Min "Şərq qapısı" qəzetinə müsahibəsində səfərinin məqsədi barədə danışıb:

– Çin Xalq Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri kimi ilk səfərimi Naxçıvana etdim və qədim diyarla tanışlıq məndə böyük təəssürat yaratdı. Səfər çərçivəsində ümummilli lider Heydər Əliyevin xatirəsini yad etdik, Heydər Əliyev Muzeyindəki eksponatlarla tanışlığımız maraqlı oldu, dahi şəxsiyyət haqqında müfəssəl məlumat aldım. Yeri gəlmişkən deyim ki, Çin və Azərbaycan arasındakı əməkdaşlıq əlaqələrinin təməli də məhz ulu öndər tərəfindən qoyulub, səmimi münasibətlərin qurulmasında görkəmli dövlət xadiminin müstəsna xidmətləri olub, biz hər zaman Onu xoş xatirələrlə anırıq.

Naxçıvanda olduğum müddətdə buranın tarixi, mədəniyyəti və adət-ənənələri ilə yaxından tanış oldum. Düşünürəm ki, Naxçıvan müqəddəs, ecazkar bir yer, dahilər diyarıdır. İkigünlük səfər müddətində yüksək səviyyəli görüşlər keçirdim, qarşılıqlı əlaqələrin inkişafına dair müzakirələr apardıq. Hazırda bir neçə Çin şirkəti Naxçıvanla əməkdaşlıq əlaqələri qurub. Bunlardan "Huawei" və "Chongqing Lifan İndustry" şirkətlərini göstərmək olar. "Huawei" şirkətinin hələ yenicə fəaliyyətə başladığı dövrlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun etimadını qazandığı üçün muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm.

Naxçıvan Avtomobil Zavodunda olarkən burada müxtəlif "Lifan" avtomobil modellərinin yığıldığı və gələcəkdə bunların sayının daha da artacağı barədə geniş məlumat öyrəndim. Naxçıvanda əlverişli biznes mühiti var. Ümidvaram ki, gələcəkdə digər Çin şirkətləri də burada investisiya layihələri həyata keçirəcək.

Naxçıvan Dövlət Universitetinin tələbələri ilə görüşümüz maraqlı müzakirələrlə yadda qaldı. Bizim təhsil, mədəniyyət, turizm, ticarət və iqtisadi sahələrdə yaxşı əlaqələrimiz var və bu əlaqələrin gələcək inkişafı üçün əlimizdən gələni əsirgəməyəcəyik. Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələri gələcəkdə daha da genişlənəcək.

**Nail ƏSGƏROV**
**Səadət ƏLİYEVA**

# Bütün sahələrdə inkişaf və müasir tələblər

***Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası müstəqillik illərində bütün istiqamətlər üzrə inkişaf edərək yeni bir tarixi mərhələ səviyyəsinə yüksəlmişdir. Vaxtilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin atdığı düşünülmüş və uzaqgörən addımlar sayəsində Naxçıvan Muxtar Respublikası işğaldan xilas edilmiş, burada gələcək inkişafın möhkəm təməlləri yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına göstərdiyi böyük diqqət və qayğı regionda müasir inkişafın təmin edilməsinə meydan açmışdır.***



Möhtərəm Prezidentin qədim diyara etdiyi tarixi səfərlər hər dəfə inkişafın yeni bir dalğasına təkan vermişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Azərbaycan dövlətinin yaratdığı geniş imkanlardan səmərəli şəkildə istifadə edərək, bütün qüvvələri və resursları muxtar respublikada hərtərəfli və əsaslı inkişafa nail olmağa səfərbər etmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovu qəbul edərkən aparılan danışıqlar muxtar diyarın ölkə rəhbəri qarşısında hesabatıdır. *Müstəqil dövlətin böyük qayğısının işığında Naxçıvan Muxtar Respublikasının hansı ritmlərlə inkişaf etdirilməsi və əldə olunan mühüm nəticələr haqqında aydın təsəvvür yaradan bu hesabat regionda ardıcıl olaraq həyata keçirilmiş genişmiqyaslı proqramların gedişatını və yekunlarını əhatə edir və dövlət tapşırıqlarının məsuliyyətlə yerinə yetirilməsinə dair ciddi məlumatları nəzərə çarpdırır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasında qazanılmış nailiyyətlərə verdiyi yüksək qiymət burada idarəetmənin və əzmkarlığın bütün imkanları ilə konkret əməli işlərə istiqamətləndirildiyini əyani şəkildə görməyə aydınlıq gətirir.*

Cənab Prezidentin qəbul zamanı bəyan etdiyi fikirlər, ilk növbədə, Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə inkişafa nail olunduğuna işıq salır. Ölkəmizin rəhbərinin aşağıdakı fikirləri regiondakı hərtərəfli inkişafa verilmiş yüksək qiymətin ifadəsidir: ***"Naxçıvan son illər ərzində böyük dərəcədə inkişaf etmişdir, həm sosial sahədə, iqtisadi sahədə, sənaye potensialının möhkəmləndirilməsi istiqamətində böyük addımlar atılmışdır".*** Dövlət idarəetməsi sahəsində çoxvektorlu inkişafa xidmət edən müdrik və çevik siyasəti ardıcıl olaraq həyata keçirən Prezident cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasının timsalında bu idarəetmə modelinin cəmiyyət həyatının bütün istiqamətlərində uğurlu nəticələrə gətirib çıxardığını diqqət mərkəzinə çəkmişdir.

*Naxçıvan inzibati-iqtisadi rayonunun 2017-2018-ci illərdə Azərbaycanın regionları içərisində rəqabətədavamlı hərtərəfli inkişafa görə birinci yerə çıxması burada baş vermiş genişmiqyaslı böyük dəyişikliklərin hesabatını vermək üçün şərait yaradır.*

Prezident cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovu qəbul edərkən xüsusi diqqət yetirdiyi məsələlərdən biri də bu regionda əldə olunan nailiyyətlərin çətin mühasirə şəraitində qazanılmasını cəmiyyətin diqqətinə çatdırmaqdan ibarət olmuşdur. Uzun illərdən bəri blokada şəraitində yaşamalı olan Naxçıvan Muxtar Respublikasında gedən iqtisadi-mədəni proseslərin və böyük inamla keçilən yolun uğurlu dərsləri istənilən çətinlikləri dəf etməklə mühüm nəticələr qazanmağın mümkünlüyünə diqqəti yönəltmək məqsədi daşıyır. Bu həm də konkret olaraq Naxçıvan Muxtar Respublikasında mühasirə şəraitində, mürəkkəb coğrafi vəziyyətdə əldə olunan nailiyyətlərin də dövlət səviyyəsində qiymətləndirilməsinin göstəricisidir: ***"Xüsusilə nəzərə alsaq ki, Naxçıvan uzun illər ərzində mühasirə şəraitində yaşayır, üç tərəfdən düşmənlə əhatə olunub, buna baxmayaraq respublika yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir".***

Dövlət başçısının qəbulunda Azərbaycanın bu regionunda təhlükəsizlik və ordu quruculuğu məsələlərinə xüsusi diqqət yetirməsi ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi ilə əlaqədar düşmən əhatəsində yaşamalı olan muxtar respublikada həmin sahələrə daha ciddi fikir verilməsinin zərurətini qabarıq ifadə etmək məqsədini daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun ölkə Prezidenti qarşısında verdiyi hesabatdakı ordu quruculuğu xəttinə dair məlumatlar regionda hərbi sahədə əldə olunan nailiyyətlərin səbəbləri və nəticələrini aydın şəkildə təsəvvür etməyə şərait yaradır. Ali Məclis Sədrinin cavablarında səsləndirilmiş aşağıdakı sözlər həmin istiqamətdə gedən proseslərin addım-addım izlənilməsinə işıq salır: ***"Sizin rəhbərliyinizlə, qayğınızla muxtar respublikada yerləşən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin birləşmə və hissələri uğurlu yol keçib. Ümumqoşun Ordusu korpusdan Əlahiddə Ümumqoşun Ordusuna qədər yol keçibdir. Bu da Sizin diqqətinizlə yaradılıb. Alınmış silah-sursatla bu gün muxtar respublikanın ordusu da lazımınca təmin olunur, hava hücumundan müdafiə sahəsində işlər həyata keçirilir. Bir sözlə, Sizin qayğınızla muxtar respublikanın müdafiəsi üçün orada yerləşən hərbi hissələr hər bir tapşırığı yerinə yetirməyə hazırdır".***

Muxtar respublikada ordu quruculuğunun səviyyəsini təsəvvür etməyə imkan yaradan bu hesabat regionda ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində, itirilmiş torpaqlarımızın qaytarılması sahəsində əldə olunmuş mühüm uğurları əyani şəkildə təsdiq edir. Belə ki, 2018-ci ildə Ali Baş Komandanın rəhbərliyi ilə Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun on bir min hektar ərazini işğaldan azad etməsi, itirilən torpaqların geri alınması müstəqil dövlətimizin ərazi bütövlüyü siyasətinin təntənəsidir. Bundan başqa, *Şərur rayonunun Danyeri kəndindəki sərhəddə yerləşən Qızılqaya zirvəsində üçrəngli dövlət bayrağımızın dalğalandırılması Azərbaycan Ordusunun ən böyük zəfərlərindən biri sayılmağa layiqdir.* Böyük qürur hissi ilə demək olar ki, məhz Qızılqaya zirvəsinin fəth edilməsi ilə Azərbaycan Ordusu Ermənistan üçün strateji əhəmiyyətə malik olan Yerevan-Çanaxçı-Söylən-Laçın magistralına nəzarət etməyə nail olmuşdur.

Eyni zamanda ordumuzun apardığı uğurlu əməliyyatlar sayəsində ulu əcdadlarımızın məzarlarının olduğu Yastan yüksəkliyində Azərbaycan əsgərinin qərar tutması torpaqlarımızın etibarlı şəkildə qorunacağına təminat verir. Bütün bunlar cənab Prezidentin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında təhlükəsizlik və ordu quruculuğu istiqamətində həyata keçirilmiş genişmiqyaslı işlərin möhtəşəm nəticələridir. Bu mənada, Prezident cənab İlham Əliyevin aşağıdakı sözləri regionda aparılan hərbi-siyasi işlərin dövlət səviyyəsində qiymətləndirilməsindən ibarətdir: ***"İlk növbədə, Naxçıvanda təhlükəsizlik tədbirləri diqqət mərkəzindədir. Son illər ərzində bu istiqamətdə böyük işlər görülüb, ordu quruculuğu sahəsində böyük inkişaf var. Bu gün Naxçıvan ordusu ən müasir silahlarla təchiz edilib, texnikanın alınması təşkil olunub və bu proses davam etdirilir".*** Dövlət başçısı tərəfindən deyilmiş bu sözlər Naxçıvana qarşı haqsız ərazi iddialarında olan işğalçı Ermənistana ciddi bir mesajdır.

Dövlət rəhbərimizin qəbulunda enerji və ərzaq təhlükəsizliyi üzrə gedən danışıq bu, həlli zəruri olan sahələrdəki mövcud dinamik inkişafı, qazanılan nailiyyətləri əks etdirməklə bərabər, həm də, ümumiyyətlə, regionda təhlükəsizlik istiqamətində görülmüş işləri tamamlayır və möhkəmləndirir. Cənab Prezidentin bu sahə üzrə Naxçıvanda ***"Su və Günəş Elektrik stansiyalarının tikintisinin geniş vüsət alması"*** ilə yanaşı, ***"Hazırda önəmli layihələrin icra edilməsi"*** haqqında bildirdikləri bu vacib sahənin inkişafının ölkə rəhbərinin nəzarəti altında olduğunu göstərir. Naxçıvan Muxtar Respublikasında enerji və taxıl istehsalı sahəsində baş vermiş böyük dəyişikliklər və nail olunmuş nəticələr regionda həmin xətt üzrə dövlət siyasətinin uğurla həyata keçirildiyini nümayiş etdirir. Ali Məclis Sədrinin muxtar respublikada 2008-ci ildəki cəmi bir elektrik stansiyasından hazırda 9 elektrik stansiyasının istifadəyə verilməsinədək keçilmiş yol haqqındakı məlumatları, xüsusən də Naxçıvanın böyük miqdarda enerji ixrac etmək imkanlarına malik bir diyara çevrilməsinə dair səslənən fikirlər qısa müddətdə bu sahədə böyük irəliləyişə nail olunduğunu nümayiş etdirir. Bu gün Naxçıvan Muxtar Respublikasında 2018-ci ildə bir il ərzində ixrac edilən 35 milyon kilovata yaxın elektrik enerjisinin miqdarı diyarın 2003-cü ildə malik olduğu elektrik enerjisi resurslarından çoxdur.

Doğrudan da, cənab Prezidentin vurğuladığı kimi, Naxçıvanda elektrik enerjisinin bugünkü səviyyəsini bir neçə il bundan əvvəl təsəvvür etmək mümkün deyildi. Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi iradəsi və nüfuzu hesabına XX əsrin sonu və XXI əsrin əvvəllərindəki enerji böhranının aradan qaldırılması üçün fasilələrlə verilən məhdud enerji resurslarından başqa, yalnız Türkiyə Cümhuriyyətindən çəkilmiş xətt üzrə alınan enerji ilə qismən vəziyyətdən çıxılması muxtar respublikada sərt iqlim şəraitində insanların yaşayıb işləmək imkanlarını təmin etmək üçün ilkin və ən zəruri tələbatların ödənilməsinə xidmət edən tarixi xilaskarlıq missiyasının ifadəsi idi. Sonrakı illərdə isə Prezident cənab İlham Əliyevin yaratdığı geniş imkanlar muxtar respublikada bərpaolunan enerji ilə yanaşı, Günəş enerjisindən də gen-bol istifadə etməyə şərait yaratmışdır. Modul tipli elektrik enerjisi mərkəzlərinin quraşdırılması ehtiyat elektrik enerjisinin qorunub saxlanılmasına da şərait yaradır.

Prezident cənab İlham Əliyevin rəsmi qəbul zamanı Naxçıvan Muxtar Respublikasını ***"Taxılla özünü tam təmin edən"*** region kimi təqdim etməsi burada ərzaq təhlükəsizliyinə də nail olmaq üçün mühüm tədbirlərin göründüyünü nəzərə çarpdırır. Bu gün Naxçıvan Muxtar Respublikasının bütün ərazisində əkinəyararlı olan torpaqlardan tam istifadə olunması, dəmyə torpaqlarda bol taxıl yetişdirilməsi işinə diqqət yetirilməsi, suvarma problemlərinin həlli, digər aqrotexniki üsullardan bacarıqla istifadə edilməsi taxıl istehsalı sahəsində mühüm nailiyyətlərin qazanılması ilə nəticələnmişdir. XX əsrin doxsanıncı illərindəki çörək növbələrindən bu gün respublikamızın hər yerində, o cümlədən də Naxçıvanda çoxçeşidli çörək istehsalına qədərki keçilmiş çətin və məsuliyyətli yol geniş mənada müstəqil Azərbaycan dövlətinin qısa müddətdə haradan-haraya qədər gəlib çatdığını əyani surətdə nümayiş etdirir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qəbulundakı müzakirələrdə insanların sosial rifahı ilə əlaqədar məsələlər xüsusi yer tutur. Ölkəmizin büdcəsində də sosialyönümlü inkişafın xüsusi çəkisinin ildən-ilə artırılması aparılan məqsədyönlü ardıcıl dövlət siyasətinin bariz göstəricisidir. Respublika üzrə yol infrastrukturunun inkişaf etdirilməsi sahəsində aparılan genişmiqyaslı işlər həm böyük inkişafa, həm də sosial rifaha hesablanmış mühüm tədbirlərdir. Naxçıvan Muxtar Respublikası ərazisində çəkilən çoxgedişli yolların keyfiyyətlə salınmasının ölkə rəhbəri tərəfindən ayrıca qeyd edilməsi görülmüş işlərə verilmiş yüksək qiymətin ifadəsidir. Həqiqətən də, Naxçıvanda yol tikintisi, sözün əsl mənasında, yol mədəniyyəti səviyyəsində həyata keçirilir, ən yüksək standartlara tam cavab verir. Naxçıvan-Şərur-Sədərək yolunun 10 ildən artıq bir müddət bundan əvvəl istifadəyə verilməsinə baxmayaraq, bu gün də dayanıqlı bir keyfiyyətə malik olması Naxçıvan yollarının ölkə rəhbərinin qeyd etdiyi keyfiyyətli yol göstəricilərinin tələblərinə uyğun olduğunu nümayiş etdirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Culfa-Ordubad magistralının tikintisi haqqında Prezident cənab İlham Əliyevə verdiyi məlumatdakı mövsüm nəzərə alınmaqla yol tikintisinin aparılmasına dair izahlar burada keyfiyyətli yol salmaq ənənəsinin davam etdirilməsini diqqətə çatdırır.

Məlum olduğu kimi, Azərbaycanın hər yerində, o cümlədən də Naxçıvanda sənayeləşmə proqramları dönmədən və uğurla həyata keçirilməkdədir. Bu, Naxçıvan Muxtar Respublikasında, ilk növbədə, zəruri ərzaq və məişət mallarına tələbatların ödənilməsinə və iş yerlərinin genişləndirilməsinə şərait yaratmışdır. Son illərdə Naxçıvanda ixracyönümlü sənaye sahələrinin yaradılması regionda sənayeləşmə hərəkatının irəli getdiyini göstərir.

Azərbaycan Respublikası Prezidentinin xüsusi sərəncamları ilə ayrılmış maliyyə vəsaitləri hesabına Naxçıvanda son illərdə inşa edilən, istifadəyə verilməkdə olan Şərur Sənaye Məhəlləsi və Xalçaçılıq fabriki regionun sənaye potensialının daha da genişləndirilməsinə və yerli xammaldan səmərəli istifadəyə təkan vermişdir. Naxçıvan xalçalarının ölkə və dünya bazarlarına çıxarılması iqtisadi əhəmiyyəti ilə bir sırada, həm də muxtar diyarın dünyada tanıdılmasına yol açır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəsmi vəzifə daşıyan dövlət və hökumət nümayəndələrinin qəbulu praktikasını həyata keçirməsi və həmin qəbul zamanı bütün danışıqları televiziya vasitəsilə xalqa çatdırması dövlət idarəçiliyi təcrübəsinə gətirilən yeni format kimi mühüm əhəmiyyətə malikdir. Bu, ölkədə baş verən proseslər və yeniliklərlə Azərbaycan xalqını əyani surətdə tanış etmək, dövlət idarəçiliyinin aşkarlığına nail olmaq baxımından da düşünülmüş addımdır.

*Prezident qəbulu dialoqu dövlət rəhbərimizin yeni bir dövlət idarəçiliyi tribunası kimi də böyük maraq doğurur. Prezident qəbulu dialoqunun televiziya vasitəsilə geniş ictimaiyyətə çatdırılması dövlət başçımızın xalqla ünsiyyətinin və həmrəyliyinin fərqli bir auditoriyasını formalaşdırmaqdadır. Möhtərəm Prezidentin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə keçirdiyi qəbul da dövlət rəhbəri və xalq dialoqu ilə yanaşı, həm də ölkəmizin bu diyarında əldə olunan nailiyyətlər, baş verən dəyişikliklərlə əlaqədar yüksək səviyyədə aparılan maarifləndirmə missiyasının da əməli ifadəsidir.*

Eyni zamanda Prezident cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının daha da inkişaf etdirilməsi üçün qarşıya qoyduğu müasir tələblər bu diyarın daha da inkişaf etdirilməsinə istiqamət verən dövlət əhəmiyyətli tapşırıqlardır. Bu tələblər və tapşırıqlar icraçıların yolunu aydınlaşdırır və cavabdehlik hissini daha da artırır, səfərbərlik üçün stimul yaradır.

Prezidentin qəbulu zamanı dövlət başçısının ifadə etdiyi dərin əminlik hissi Naxçıvan Muxtar Respublikasında yeni və daha parlaq zəfərlərin qazanılmasına inam bəsləməyə tam əsas verir: ***"Əminəm ki, muxtar respublika əhalisinin sosial rifahının yaxşılaşdırılması, respublika qarşısında duran bütün vəzifələrin icrası üçün bütün qüvvələr səfərbər ediləcək və 2020-ci il də Naxçıvan üçün uğurlu olacaqdır".***

*Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin böyük inamını həyata keçiriləcək yeni layihələr və qazanılacaq daha böyük uğurlarla möhkəmləndirəcəkdir.*

*Müstəqillik illərində böyük və şərəfli yol keçmiş Naxçıvan Muxtar Respublikası dövlət rəhbərimizin qayğısı və tələblərinin işığında daha böyük nailiyyətlərə doğru özünü səfərbər edərək irəliyə doğru addımlamaqdadır.*

**İsa HƏBİBBƏYLİ**
***Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik***
***"Azərbaycan" qəzeti, 22 noyabr 2019-cu il***

Yeni nəşrlər

## Gənc nəslə tariximizin aşılanmasında yeni bir addım

*Son 25 ilə yaxın müddətdə Naxçıvan Muxtar Respublikasında tariximizin tədqiqi, təbliği və gənc nəslə öyrədilməsi sahəsində genişmiqyaslı işlər görülür. Bu səbəbdən yeniyetmə və gənclərə tariximizin orta məktəb dövründən öyrədilməsi qarşıda duran əsas vəzifələrdəndir.*




Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev vətənpərvər gənclər yetişdirməyin məktəbdən başlanılmasının zəruriliyini qeyd edərək deyirdi: ***"Müstəqil Azərbaycanın gənc nəslinin hər bir nümayəndəsi məktəbdə milli təhsil alaraq öz xalqının, millətinin tarixini qədim dövrlərdən bu günümüzədək yaxşı öyrənməlidir. Əgər o, bunu öyrənməzsə əsl vətəndaş ola bilməz, əgər o, bunu öyrənməzsə öz millətini dəyərləndirə bilməz, əgər o, bunu öyrənməzsə öz milli mənsubiyyəti ilə lazımi səviyyədə qürur duya bilməz".***

Heç şübhəsiz ki, hər bir xalqın inkişaf sürəti onun yetişdirdiyi gənc nəslin mədəni səviyyəsi ilə bilavasitə bağlı olub. Gənclərin inkişafı isə onların aldığı tərbiyə və təhsilin səviyyəsi ilə müəyyənləşdirilir. Bu keyfiyyətlərin təməlləri ailədə qoyulursa, daha sonra parta arxasından formalaşdırılmağa başlayır. Onların hansı istiqamətə yönəldilməsi təfəkkürlərindən, düşüncə tərzlərindən və insani keyfiyyətlərindən asılıdır. Bəlkə də, bu səbəbdən idi ki, müstəqilliyimizin qazanılmasından əvvəlki dövrlərdə sovet ideoloqları gənc nəsilə öz tarixini unutdurmağa çalışırdılar.

Sovet hakimiyyəti illərində məktəblərdə "SSRİ tarixi" adı altında heç bir xalqın özününkü olmayan müstəmləkəçilik tarixi tədris edilirdi. Azərbaycan xalqının keçdiyi qəhrəmanlıq tarixi sovet ideologiyasına uyğunlaşdırılaraq təhrif olunmuş şəkildə öyrədilir, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan kimi qədim tarixə malik bir diyardan isə, ümumiyyətlə, bəhs edilmirdi. Bu səssiz assimilyasiya siyasətinə müstəqilliyimizin qazanılmasından sonra son qoyuldu. Azərbaycanın əsl tarixinin üzə çıxarılmağa başladığı bu dövr Naxçıvan diyarının da tarixinin araşdırılması və bununla bağlı ümumiləşdirici nəşrlərin hazırlanması zərurətini yaratmışdı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən 2012-ci il 6 avqust tarixdə "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması ilə bağlı verilən Sərəncam bu diyarın tarixinin hərtərəfli öyrənilməsi, ümumiləşdirilmiş şəkildə yazılması və təbliği sahəsində mühüm bir addım oldu. Sərəncamda deyilirdi: *"Azərbaycanın böyük bir yol keçmiş Naxçıvan diyarının tarixi lazımi səviyyədə öyrənilməmişdir. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda rəhbərliyi dövründə və bu gün də ulu öndərin yolunun layiqincə davam etdirilməsi nəticəsində xalqımızın tarixinin, dilinin, ədəbiyyatının, arxeologiya və etnoqrafiyasının, folklorunun və milli dəyərlər sisteminin elmi dəlillər və aşkar edilmiş yeni faktlar əsasında araşdırılmasına başlanılmış, Azərbaycan, o cümlədən Naxçıvan tarixinə dair bir sıra elmi nəşrlər meydana çıxmışdır... Naxçıvan tarixinin müxtəlif dövrlərinə və problemlərinə dair xeyli sayda elmi-tədqiqat materiallarının nəşr olunması və keçirilmiş arxeoloji ekspedisiyalar nəticəsində yeni və zəngin materialların əldə edilməsi "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması üçün əsas yaratmışdır".*

Həmin sərəncamın icrası istiqamətində görülən işlər çərçivəsində "Naxçıvan tarixi" çoxcildliyi Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin və Naxçıvan Dövlət Universitetinin əməkdaşlarından ibarət 25 nəfərlik müəlliflər qrupu tərəfindən 2013-2015-ci illərdə ərsəyə gətirilmişdir. Bu əsərin hazırlanmasına göstərilən dövlət qayğısı öz təsdiqini 2017-ci ildə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin mükafatına layiq görülməsində tapmışdır.

Naxçıvan tarixini qədim zamanlardan günümüzədək əhatə edən bu ümumiləşdirici əsərlə bağlı Azərbaycan elmi ictimaiyyətində keçirilən müzakirələr, yazılan rəylər onun geniş oxucu kütləsi qazanmasına öz töhfəsini verdi. Muxtar respublika mediası çərçivəsində "Naxçıvan tarixi" tədris proqramının yayımlanması, ali məktəblərdə uğurla tədris olunması həmin nəşrin elmi-tədqiqat istiqaməti ilə məhdudlaşmadığını, bütün vətəndaşların, xüsusi ilə də gənc nəslin öz tarixinə marağının artmasına əhəmiyyətli dərəcədə təsirini göstərir. Bu prosesin ən gözəl təzahürlərindən biri də ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün "Naxçıvan tarixi" adlı fakültativ məşğələ üçün tədris vəsaitinin hazırlanması və nəşr etdirilməsidir.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin qərarı ilə nəşr olunmuş yeni tədris vəsaiti "Naxçıvan tarixi" üçcildliyi əsas mənbə götürülməklə yazılıb. Bu amil tədris vəsaitində Naxçıvan diyarının ən qədim zamanlardan müasir dövrümüzədək olan tarixinin düzgün xronoloji ardıcıllıqla əks olunmasına imkan verib. Bu ardıcıllıq 3 bölmə üzrə qruplaşdırılıb.

"Naxçıvan qədim dövrlərdən XVIII əsrin ikinci yarısınadək" adlandırılan I bölmə adından da göründüyü kimi daha böyük bir zaman kontekstini əhatə edir. 14 paraqraflı bu bölmədə, təqribən, 100 min il davam edən geniş bir zaman çərçivəsində baş verən tarixi hadisələr işıqlandırılıb. Bölmədə Naxçıvanda ilkin şəhər mədəniyyətinin yaranması, quldarlıq və feodalizm quruluşlarının xüsusiyyətləri, həmçinin Naxçıvanşahlıq, Azərbaycan Atabəylər dövləti, İntibah mədəniyyəti, Naxçıvan tüməni, Səfəvilər dövləti, Naxçıvan sancağı və digər mövzular ayrıca başlıqlar altında verilib.

Kitabın II bölməsi Naxçıvanın XVIII əsrin ikinci yarısından XX əsrin əvvəllərinədək olan dövrünü əks etdirir. Bu bölmədə Naxçıvan xanlığı, Qacarların yürüşləri, Türkmənçay müqaviləsi, ermənilərin bu diyara köçürülməsi və bunun acı nəticələri geniş şəkildə şərh olunub. Bölmənin son paraqrafları Kəngərli yurdunun generalları və bu dövrün mədəniyyətinin işıqlandırılmasına həsr edilib.

Vəsaitin III bölməsində Naxçıvanın XX əsrin əvvəllərindən müasir dövrümüzədək olan tarixi əks olunub. 12 paraqrafdan ibarət bu bölmədə Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan əlaqələri, Moskva və Qars müqavilələri və onların əhəmiyyəti, Azərbaycan dövlətçiliyində mühüm yeri olan Naxçıvanın muxtariyyət tarixi, ümummilli lider Heydər Əliyevin həyatı və fəaliyyəti işıqlandırılıb, Naxçıvanın müstəqillik dövründəki inkişaf mərhələləri şərh edilib.

Şagirdlərə tariximizin öyrədilməsində böyük əhəmiyyətə malik olan vəsaitin dəyərini artıran cəhətlərdən biri də qan yaddaşımız olan tarixi günlərin ayrıca başlıqlar altında izah olunmasıdır. Bu başlıqlar gənc nəslin vətənpərvərlik tərbiyəsində mühüm əhəmiyyətə malikdir.

Tədris vəsaitinin digər mühüm cəhəti son illərdə Naxçıvanda baş verən siyasi və iqtisadi-mədəni proseslərin xüsusi paraqraflarda işıqlandırılmasıdır. "Naxçıvan Muxtar Respublikası müasir dövrdə", "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı kimi", "Naxçıvan-abidələr diyarı", "Naxçıvanda elm, təhsil və mədəniyyət müasir dövrdə" adlandırılan bu paraqraflar gənc nəslin yaşadığı dövrdə baş verən hadisələri şərh etməklə, onlarda tarixinə, mədəniyyətinə marağı daha da artırmaq, eyni zamanda qurub-yaratmaq əzminə stimul vermək baxımından əhəmiyyətlidir. Tarixi hadisələrin ayrıca "Xronologiya" bölməsində sistemləşdirilməsi vəsaitin dəyərini daha da artırıb.

Dərs vəsaiti təhsillə elmin əməkdaşlığının göstəricisi olmaq baxımından da əhəmiyyətlidir. Belə ki, vəsaitin AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin redaktorluğu ilə, həmçinin bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, professor Fəxrəddin Səfərlinin və digər iki əməkdaşın rəyi əsasında nəşr olunması onun dəqiq elmi qaynaqlara söykəndiyinə təminat verir. "Naxçıvan tarixi" ümumiləşdirici əsərinə əsaslanmaqla bərabər, 25 əlavə mənbəyə də müəyyən istinadların edilməsi dərs vəsaitinin əhəmiyyətini daha da artırır.

Qeyd etdiyimiz kimi, yeni nəşrin fakültativ məşğələlər zamanı tədris olunması nəzərdə tutulsa da, fundamental elmi bazaya söykənməsi, dilinin lakonikliyi, tarixi hadisələrin sadələşdirilmiş formada verilməsi və konkretliyi onun orta məktəb çərçivəsini aşaraq tarixini öyrənmək istəyən hər bir vətəndaşın stolüstü kitabına çevriləcəyinə zəmanət verir.

Dərs vəsaiti muxtar respublikamızda tariximizin öyrənilməsinə və təbliğinə göstərilən yüksək dövlət qayğısının bariz nümunəsidir. Yaradılmış bu münbit şərait geniş elmi ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır.

*İnanırıq ki, tədris vəsaiti böyüməkdə olan nəslin orta məktəb dövründən tariximizə məhəbbət və vətənpərvərlik ruhunda formalaşmasında mühüm rol oynayacaqdır.*

**Zeynəb QULİYEVA**
***AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, Əməkdar müəllim***

## *"Naxçıvanın muxtariyyəti tarixdə və günümüzdə"* mövzusunda konfrans keçirilib



***AMEA Naxçıvan Bölməsində Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illik yubileyinə həsr olunmuş "Naxçıvanın muxtariyyəti tarixdə və günümüzdə" mövzusunda elmi konfrans keçirilib.***

Konfrans Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə təsdiq etdiyi "Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"na uyğun olaraq AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərinin, Naxçıvan Müəllimlər İnstitutu və Naxçıvanşünaslıq Mərkəzinin birgə təşkilatçılığı ilə reallaşdırılıb.

Konfransı giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" mövzusunda məruzə ilə çıxış edib. Sonra Naxçıvan Müəllimlər İnstitutunun rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayevin "Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafının prioritet istiqamətləri", Naxçıvan Dövlət Universitetinin professoru, iqtisad üzrə elmlər doktoru Nazim Əhmədovun "90-cı illərin ortalarında ölkədə makroiqtisadi sabitliyin əldə olunması və Naxçıvan sənayesində yeni inkişaf mərhələsinin başlanması", Naxçıvan Müəllimlər İnstitutunun kafedra müdiri, professor Akif İmanlının "Muxtariyyət tarixi fonunda elmi-pedaqoji düşüncələr" və AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, dosent Emin Şıxəliyevin "Türk qapısına gedən yol və Naxçıvanın muxtariyyət statusu" mövzusunda məruzələri dinlənilib.

Konfrans işini "Naxçıvanın muxtariyyət tarixi və arxeologiyası", "Muxtariyyət dövründə elm və ədəbiyyat", "Muxtariyyət dövründə sosial-iqtisadi və mədəni inkişaf" və "Muxtariyyət dövründə təhsilin inkişafı" mövzularında bölmə iclasları ilə davam etdirilib. Bölmə iclaslarında muxtariyyət illərində Naxçıvanda baş verən siyasi, sosial-iqtisadi proseslər, elmi, mədəni inkişaf və onun nəticələrinə həsr edilən məruzələr dinlənilib, müzakirələr aparılıb.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Ali təhsil ocağında kitab təqdimatı olub



*Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında ali təhsil ocağının "Azərbaycan tarixi" kafedrasının dosenti, tarix üzrə elmlər doktoru Sevinc Abbasovanın "Azərbaycan Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafında qadınların rolu (1970-2015-ci illər)" adlı kitabının təqdimatı keçirilib.*

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov kitabın elmi-ictimai əhəmiyyətini qeyd edərək Azərbaycanın gender tarixinə dair yazılmış mükəmməl bir dərs vəsaiti olduğunu diqqətə çatdırıb. O vurğulayıb ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan gender siyasətinin uğurlu davamı ölkəmizdə, eləcə də muxtar respublikamızda qadınların sosial həyatın bütün sahələrinə fəal surətdə cəlb olunması ilə nəticələnib.

Tarix üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yeganə Məmmədova qeyd edib ki, dərs vəsaiti, ilk növbədə, müstəqillik dövrü Azərbaycan tarixşünaslığı üçün son dərəcə aktuallığı ilə səciyyələnən mühüm bir məsələnin elmi əsaslarla sistemli və kompleks şəkildə tədqiqinə həsr olunması baxımından maraq doğurur.

Bildirilib ki, kitabda ümummilli liderin birinci dəfə Azərbaycanda ali hakimiyyətə gəlişindən müasir dövrədək ölkənin sosial-iqtisadi, mədəni-mənəvi və siyasi həyatında baş verən mütərəqqi dəyişikliklər ümumi şəkildə dəyərləndirilib.

Jurnalistika və kitabxanaçılıq kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru İman Cəfərov vurğulayıb ki, giriş, 4 fəsil və nəticədən ibarət olan yeni nəşr bir daha təsdiq edir ki, artıq Azərbaycan tarixşünaslığının Naxçıvan məktəbi formalaşıb. Kitabın elmi əhəmiyyəti nəzərə alınaraq xarici dillərə tərcümə olunması da məqsədəuyğundur.

Sonda müəllif muxtar respublikada yaradıcı insanların elmi-pedaqoji fəaliyyəti üçün göstərilən dövlət dəstəyinə görə minnətdarlığını bildirib.

**Səadət ƏLİYEVA**

## Uşaq müəssisələrində monitorinqlər aparılmışdır

*Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması, həmçinin qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrası oktyabr ayında da diqqətdə saxlanılmış, tədbir, monitorinq və sərgi-satışların keçirilməsi davam etdirilmişdir.*

Aztəminatlı ailənin üzvü və sağlamlıq imkanları məhdud 5 qadının peşə kurslarına cəlb olunması, məşğulluq probleminin aradan qaldırılması ilə bağlı müraciət etmiş 9 əməkqabiliyyətli vətəndaşın, o cümlədən 8 qadının işlə təmin olunması üçün məlumatlar aidiyyəti orqanlara göndərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun 2019-cu il üçün İş Planına uyğun olaraq məhdud fiziki imkanlıların və istedadlı qadınların rəsm və əl işlərinin sərgi-satışı keçirilmiş, 20 min 298 manat dəyərində 1629 rəsm və əl işi satılmışdır. Ümumilikdə, oktyabr ayında 273 şəxsin 20 min 478 manat dəyərində 1630 əl işi satılaraq iş sahiblərinə təqdim olunmuşdur. Həmçinin Şərur rayonunun Qışlaqabbas kəndində "Reproduktiv sağlamlıq və ailə dəyərləri" mövzusunda tədbir keçirilmiş, 205 maarifləndirici broşür paylanılmışdır.



Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının qorunması ilə əlaqədar 2 uşaq müəssisəsində monitorinq aparılmış, uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına uşaqlar haqqında fərdi məlumatların yeni proqrama uyğun daxil edilməsi davam etdirilmişdir. Sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası ilə bağlı işlər görülmüş, 11 uşaq ümumtəhsil məktəblərinə, məktəbdənkənar və müalicə-reabilitasiya müəssisələrinə cəlb olunmuş, Naxçıvan Dövlət Kukla Teatrında sağlamlıq imkanları məhdud olan uşaqlara tamaşa, Naxçıvan Dövlət Film Fondunda isə aztəminatlı, valideyn himayəsindən məhrum, sağlamlıq imkanları məhdud uşaqlara film göstərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Payızın qışı müjdələyən sazaqlı günlərindən birində səhər saatlarında şəhərin mənim üçün yaxşı tanış olan səmtinə, "Elit-57" Alış-Veriş Mərkəzinə tərəf yolum düşür. İş günü olmadığından, necə deyərlər, arxayın gəzir, yaşı minilliklərə söykənən qədim şəhərimin hüsnünə, son onilliklərin bəhrələrinə, abad küçələrə tamaşa edə-edə rəngarəng işıqlı vitrinləri olan mağazaların, günəşin iliq şüalarının pəncərələrini ayna kimi par-par parıldatdığı binaların önündən keçirəm.*

# Yaşıl nəğmə çələngi



Müxtəlif dükanlar, avtomobil dayanacaqları, geyim mağazaları bir-bir arxada qalır, xəzan yelinin əl gəzdirdiyi ağacların yarpaqları yanımdan sürətlə şütüyürlər. Alış-veriş mərkəzinə çataçatda, yaşayış binalarının arasında boy göstərən, xəfif küləyin canına üşütmə saldığı, tir-tir titrəyən dairəvi qırmızı lent diqqətimi çəkir. Öz-özümə "İlin bu vədəsində gülkarlıqda qırmızı lent nəyə lazımdır?" – deyib marağıma hakim kəsilən bu mənzərəyə yaxından baxmağa tələsirəm. Budur, qol-qola verib havanın sazağından qorunmağa çalışan həmişəyaşıl ağac və dekorativ gül tingləri... Yeni əkildiyini nişan verən, ipək saç kimi tel-tel daranmış torpağa tamaşa edir, yaxınlıqdakı bir nəfərdən qarşısında dayandığım binanın sakinləri tərəfindən gülkarlığın ötən günlərdə könüllü şəkildə salındığını öyrənirəm. Qarşılaşdığım bu xoş təsadüf illər uzunu muxtar respublikamızda görülən yaşıllaşdırma işlərinə insanların mütəşəkkil şəkildə cəlb olunmasının hədər yerə getmədiyini, muxtar respublika rəhbərinin bu tədbirlərdə şəxsən iştirakının ətraf mühitə həssas münasibətin gələcəyimiz üçün nə qədər önəmli olduğuna sakinlərin diqqətini çəkdiyini, bu amilin artıq onların mənəvi dünyasına böyük mənada sirayət etdiyini göstərir.

İnsan qəlbindən gələn arzunun, istəyin cücərtilərini, zəhmətkeş əllərin nəvazişini seyr etdikcə diyarımızda yaşıllaşdırma sahəsində görülən işlər barədə öyrəndiklərim, eşitdiklərim yaddaşımda bir-bir canlanır. Bu ilin fevral ayında Ordubad rayonunun Azadkəndində su təchizatı sisteminin inşası layihəsinin icrası məqsədilə muxtar respublikamıza gələn "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyevdən jurnalist həmkarımla birgə aldığımız müsahibəni xatırlayıram: "Naxçıvanda böyük infrastruktur quruculuğunun həyata keçirildiyinin şahidi olduq. Təkcə paytaxt Naxçıvan şəhərində deyil, rayon və kəndlərdə də böyük abadlıq və quruculuq işləri görülüb.

Muxtar respublikanın bütün yaşayış məntəqələri qazlaşdırılıb, məktəb binaları yenilənib, yaşayış məntəqələrində tibb ocaqları yaradılıb, yol infrastrukturu müasir səviyyədə yenidən qurulub, yaşıllıqlar salınıb. Azərbaycanda yaşıllıqların orta göstəricisi 11 faiz olsa da, bu rəqəmin Naxçıvanda 20 faizə çatması sevindirici haldır. Halbuki 1994-cü ildə Naxçıvanda, demək olar ki, ağac yox idi, hamısı kəsilmişdi. Amma bu gün biz tamam başqa bir mənzərənin şahidi oluruq".

Ertəsi gün şəhərə qısa ekskursiya zamanı Həsən Əliyev küçəsi, Heydər Əliyev prospekti və Atabəylər məhəlləsində yerləşən icitmai yaşayış binalarının qarşısında salınan gülkarlıqlarla da qarşılaşdım. Onu da xüsusilə qeyd edim ki, həmin yaşıl guşələr insanların təbiətə həssas münasibətini göstərən ilk hal deyil, əvvəllər muxtar respublikamızın bölgələrinə yolum düşəndə sakinlərin yol kənarlarında, həyətyanı sahələrdə ağac əkdiklərini, yaşıllıqlara cidd-cəhdlə qulluq göstərdiklərini dəfələrlə görmüşəm. Təsadüfi deyil ki, yuxarıda da qeyd etdiyim kimi, muxtar respublikamızın qonaqları burada həyata keçirilən infrastruktur layihələri ilə yanaşı, görülən yaşıllaşdırma tədbirlərini də rəğbətlə alqışlayır, işlərin miqyası baxımından dünya şəhərləri arasında Naxçıvanın ön sıralarda yer aldığını qeyd edirlər. Təbii ki, diyarımızın yaşıllıqlara qərq olunması heç də asan başa gəlməyib, illərin zəhməti, gərgin əməyi, arzusu, istəyi dayanır bu işlərin arxasında...

Yaxın keçmişə qısa ekskursiyamız yetər ki, yaşıllaşdırma proseslərinin necə mərhələli şəkildə və uzaqgörənliklə getdiyinin şahidi olaq. Tarixi vərəqləyəndə görürük ki, bütün sahələrdə olduğu kimi, təbiətə qayğı, onu qoruyub saxlamaq, yaşıllıqları artırmaq kimi qlobal məsələnin həllinin təməlində də məhz ulu öndər Heydər Əliyev şəxsiyyəti, onun böyük uzaqgörənliklə əsasını qoyduğu misilsiz işlər dayanır. Ümummilli liderimiz hələ ötən əsrin sonlarında məlum səbəblər üzündən çarəsiz, əlacsız qalan insanların gövdəsinə balta çaldıqları yüz illərin şahidi olan ağacların yaratdığı mənzərəni "təbiət qəbiristanlığı" adlandırıb və təbiətə dəyən bu ziyanın tezliklə aradan qaldırılması üçün tövsiyələr verib, insanları ağac əkib, bağ salmağa dəvət etmişdi. Görkəmli dövlət xadiminin 1993-cü il aprelin 2-də qəbul etdiyi tarixi qərarla muxtar respublika ərazisində başlanan yaşıllaşdırma tədbirlərinin nəticəsidir ki, bu gün "təbiət qəbiristanlığı" ifadəsinin yerini dillərdən düşməyən "Cənnətməkan diyar" sözləri əvəzləyib.

Ölkəmizdə bu işlərin planlı şəkildə həyata keçirilməsi üçün 2003-cü il fevralın 18-də "Azərbaycan Respublikası meşələrinin bərpa edilməsi və artırılmasına dair Milli Proqram" qəbul edilmiş və Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında bu sahədə tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı, eləcə də ayrı-ayrı illərdə qəbul olunan meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə dövlət proqramlarına uyğun olaraq yeni meşə massivlərinin, yaşıllıq zolaqlarının, meyvə bağlarının salınması və bununla bağlı digər tədbirlər bu gün də ardıcıllıqla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən ilk dəfə olaraq muxtar respublikanın flora və faunasına həsr olunan iki cilddən ibarət "Qırmızı kitab" çap edilib. Xüsusi gözəlliyi ilə seçilən təbiət guşələri, yüzillik yaşı olan ağaclar, şəlalələr, mağaralar, elmi, təcrübi, tarixi əhəmiyyətə malik olan obyektlər təbiət abidələri kimi qeydiyyata alınaraq pasportlaşdırılıb.



Ötən dövrdə qoruqlar, xüsusi mühafizə olunan təbiət əraziləri yaradılıb, bölgələrdə "Gənclər bağı" salınıb. Hər il mütəmadi olaraq təşkil edilən ekoloji tədbirlər, iməciliklər vasitəsilə minlərlə ağac tingi əkilir, gülkarlıqlar yaradılır. Ümumiyyətlə, ötən illərdə Naxçıvanda bu istiqamətdə görülən işlər bir deyil, beş deyil, onlarla, yüzlərlədir. Düzgün istiqamət aşılayan, əsl yolgöstərən Qurucu Rəhbərin sayəsində bu sahədə hələ bundan da böyük uğurlar, nailiyyətlər gözləyir bizi...

Bir vaxtlar insanların əlindən zinhara gələn, böhran vəziyyətinə düşən təbiət indi elə onların əməyi sayəsində gözəlləşir, təravətlənir. Qolu-budağı sındırılmış, "arzuları puça çıxmış", kimsəsiz, miskin görünən ağacların yerində hər il minlərlə fidanlar boy atır, yaşıllıq əraziləri kiçik meşəliklərə çevrilir. İllər öncə "iməcilik" adı eşidən kimi müxtəlif bəhanələrlə bu xeyirxah əməldən, ümumxalq işindən yayınmağa cəhd edən insanlar indi canla, başla ağac əkməyə, bağ salmağa böyük həvəs və maraq göstərirlər. Hər bir naxçıvanlı yaşıllıqların həyatımızdakı önəmini dərindən dərk edir, ümumi evimiz sayılan təbiəti qorumaqla, yaşatmaqla, bu sahədə qurub-yaradanlara həssas yanaşmaqla gələcəyimizin təminatçısı olmağa çalışır. Bir vaxtlar təbiətimizin məhv olmasını ürək yanğısı ilə dilə gətirən akademik Həsən Əliyevin arzularının reallığa çevrildiyi muxtar respublikamızda bu gün insanların qəlbində daha "Həyəcan təbili" deyil, "Təbiəti sevək və qoruyaq" adlı yaşıl nəğmə çələngi səslənir...

✍ Nail ƏSGƏROV

## "Payızın rəngləri" adlı rəsm sərgisi açılıb

*Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda naxçıvanlı rəssamların əsərlərindən ibarət "Payızın rəngləri" adlı rəsm sərgisinin açılışı olub.*



Tədbirdə Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, payız fəsli incəsənətin hər hansı bir sahəsində işləyən yaradıcı insanlar üçün ən sevimli fəsillərdən biridir. Payız yaradıcı insanların fəslidir. Bu fəslin qızılı çalarları, rəngarəngliyi yaradıcı insanların ruhunu oxşayır. Özlüyündə dərin xəyali və fəlsəfi məna daşıyan bu fəsildə rəssamlarımız özlərinin ən gözəl əsərlərini yaradırlar. Məhz bugünkü sərgidə də 23 rəssamın payızın sarı, qırmızı və yaşıl çalarlarından istifadə edərək sevgi, bolluq, lirika, dostluq, romantika, bərəkət kimi müxtəlif düşüncələrini əks etdirən 50-yə yaxın rəsm əsəri nümayiş olunur.



Türkiyənin Naxçıvandakı Baş konsulu Mehmet Emin Kiraz, Naxçıvan Dövlət Universitetinin Təsviri incəsənət kafedrasının müdiri, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həbibə Allahverdiyeva, Bəhruz Kəngərli Muzeyinin direktoru Səbinə Əlincəli, Naxçıvan Dövlət Rəsm Qalereyasının direktoru Hökumə Məmmədli tədbirdə çıxış ediblər.

Tədbirdə Fikrət Babayevin "Payız", Əli Səfərovun "Qızıl payız", Həbibə Allahverdiyevanın "Payız düşüncələri", Ruslan Zamanovun "Etüd", Səriyyə Hüseynovanın "Payız rəqsi" və digər rəssamların əsərləri maraqla qarşılanıb.

Sərgi bir həftə davam edəcək.

✍ Güntac ŞAHMƏMMƏDLİ

## Fövqəladə hallara hazırlıq işləri davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən fövqəladə hallara hazırlıq işləri oktyabr ayında da davam etdirilib, muxtar respublikada əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində qarşıya qoyulmuş vəzifələr icra olunub. 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar Naxçıvan şəhərində, Şərur, Sədərək və Culfa rayonlarında fəaliyyət göstərən müəssisə və təşkilatların fövqəladə hallara hazırlıq vəziyyəti yoxlanılıb, qazla iş rejiminə keçirilmiş 757 qazanxanaya baxış keçirilərək suqızdırıcı qazanların, qaz boru xətlərinin, nəzarət-ölçü cihazlarının işləkliyinə nəzarət olunub. 221 müdavim peşə tədrisi məktəblərində ocaqçı-maşinist ixtisası üzrə kurslara cəlb edilib.*

Muxtar respublikada standarta uyğun olmayan qaz və elektrik qızdırıcı cihazlarının istismarının qarşısının alınması məqsədilə müvafiq dövlət orqanları ilə birlikdə 87 ticarət obyektinə baxış keçirilib, təhlükəsizlik qurğusu olmayan məişət qaz cihazları aşkarlanaraq satışı dayandırılıb.

Ötən ay 15 təhlükə potensiallı obyektdə texniki təhlükəsizliyə əməl olunması yoxlanılıb, 2 texnoloji nəqliyyat vasitəsinə texniki pasport və dövlət nömrə nişanı verilib, 20 qurğu sınaqdan keçirilərək texniki təhlükəsizlik sertifikatı ilə təmin edilib. 5 müəssisədə mühafizə işinin təşkilinə nəzarət olunub, 8 müəssisədə maarifləndirmə-profilaktika işi aparılıb. Həmçinin muxtar respublikada radiasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə 10 tibb müəssisəsində yoxlama keçirilib, 3 tibb müəssisəsinə radioloji-gigiyenik pasport verilib. Mülki müdafiə işinin təşkili ilə bağlı 14 obyektdə yoxlama keçirilərək metodik köməklik göstərilib, əhaliyə fövqəladə hallardan qorunma qaydalarının öyrədilməsi məqsədilə 33 obyektdə 1552 nəfərin iştirakı ilə maarifləndirici tədbir keçirilib.

Muxtar respublika ərazisində yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə 221 obyektdə nəzəri, 151 obyektdə diqqətli, 9 obyektdə isə məqsədli yoxlamalar keçirilib, 43 obyektdə 1145 nəfərin iştirakı ilə yanğına qarşı maarifləndirici tədbir təşkil olunub.

Daşınmaz əmlakın icbari sığortası ilə bağlı müəssisə və təşkilatlarda, sahibkarlıq subyektlərində izahat işləri aparılaraq 32 obyektdə icbari sığorta müqaviləsinin bağlanılmasına nail olunub. 54 obyektin işçi və layihə sənədlərinin ekspertizası aparılaraq onların 43-nə rəy verilib. Naxçıvan şəhərində 2 obyektin ərazisində mühəndis-geoloji işlər aparılıb, yeni tikilən 4 yaşayış binasının tikinti norma və qaydalarına uyğun tikilməsinə nəzarət olunub. 6 tikinti obyektinin yükdaşıyıcı dəmir-beton konstruksiyalarında betonun naturada möhkəmlik göstəricisi səyyari üsulla yoxlanılıb, tikinti işləri başa çatdırılmış 4 obyektə "İstismara hazırlıq aktı" tərtib olunub.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Qanunvericiliyə əsasən hansı uşaqların övladlığa götürülməsinə yol verilir?*

***Cavab:*** Övladlığa götürməyə yetkinlik yaşına çatmayanlar barəsində və yalnız onların mənafeyi naminə uşağın doğumu müvafiq icra hakimiyyəti orqanında (Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri) qeydə alındıqdan sonra yol verilir.

Bir uşaq iki şəxs tərəfindən (ər-arvaddan başqa) övladlığa götürülə bilməz.

Ər (arvad) özünün nikahdan olmayan uşağını və ya arvadının (ərinin) uşağını övladlığa götürə bilər.

Uşağın mənafeyinə cavab verən hallar istisna olmaqla, qardaş və bacıların müxtəlif şəxslər tərəfindən övladlığa götürülməsinə yol verilmir.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 802